ASES
ASES INTERNATIONAL JOURNAL OF CULTURE, ART AND LITERATURE
ISSN
3023-5480

Article Arrival Date
12.09.2022
Article Published Date
20.12.2023

# UŞAQ ƏDƏBİYYATININ İNKİŞAFI TARİXİNDƏ MİR MEHDİ SEYİDZADƏNİN YARADICILIQ YOLU

THE CREATIVE PATH OF MIR MEHDI SEYIDZADEH IN THE HISTORY OF THE DEVELOPMENT OF CHILDREN'S LITERATURE

**AYGUN AHMADOVA**
Azerbaycan Devlet Pedagoji Üniversitesi (Ü. Hacıbeyov-68), 0000-0002-2464-2513

**Abstract**

The history of the development of Azerbaijani literature, especially children's literature, Mir Mehdi Seyidzade, who has high talent, enthusiastic inspiration and poetic sense, was not only satisfied with children's creativity, but at the same time, he was loved as a poet who wrote a number of valuable works for the elderly and adults. He is a poet who is known mainly as a children's writer in modern Azerbaijani literature. Starting from the 1930s, he illuminated the history of children's literature with his name and his creativity. The poet who always emphasized how difficult, responsible and honorable work is to write for children, repeatedly stated that our writers need a special talent to understand the intricacies of child psychology, to be able to tell the truth to children, and to be literary and artistic. Mir Mehdi Seyidzade also had this feature as an undeniable creative principle. Author's "Children's love", "Swallows", "Funny", "Good friend" and others. in his poems, fairy-tale plays and poems, he brought his creative features and artistic possibilities to this literature as a strong children's writer and revealed his creative possibilities. Exuberant romance was felt in the poet's address to sacred topics such as homeland, people, freedom, in his poems glorifying pure human love, as well as in his sincere songs for children. This romance is rooted in life and earth, so it's poignant and refreshing. Mir Mehdi Seyidzade wrote a number of poems for children. Here, young readers are told about the most interesting events that have happened in the life of the Azerbaijani people from the past to the present day. Mir Mehdi Seyidzade looks at the past and present of our country in his stories "Baku Landscapes", "On the Gilgilchay Coast", "Magic Mirror" and other stories, and introduces his young readers to their struggle and beliefs. In addition to children's poems, Mir Mehdi Seyidzade also has interesting and meaningful presentations. As is known, writers widely use stories and images to introduce children to nature and the world of living things. For this purpose, Mir Mehdi Seyidzade often turned to folk tales and legends. His verse stories have always been received with interest and read with love by children. Mir Mehdi Seyidzade's representations are comprehensive in terms of subject matter. The poet pays special attention to clarity of ideas, modernity, and educational meaning in his representations. After Mir Mehdi Seyidzade, A. Shaig, it is the period of development of Azerbaijani children's drama. He used folk tales and classical heritage to create a number of beautiful and memorable stage productions. His children's plays on modern topics were readable and educational. From the books "Children's Poems" to the work "Nargiz", the poet began a productive and qualitatively new era. In 1935-1936, it was successfully performed on the stages of the Young Audience Theater and the Puppet Theater. Mir Mehdi Seyidzade started his first work by writing stories and poems based on the motifs of folk literature. He connected the theme of the struggle between Good and Evil, which is a constant theme of folklore, with a new content - the struggle of the workers against the oppressors, and glorified the ideas of freedom and revolution. Mir Mehdi Seyidzade viewed translation as a serious creative work, as well as works of Omar Khayyam, A.S.Pushkin, V.A. Zhukovsky, I.A. He translated the works of Krylov and other writers into our language. Our state awarded the poet with honorary degrees and medals for his rich creativity. The creativity of Mir Mehdi Seyidzadeh, who is pure, fragile and sensitive like a child's heart, will always play an

important role in the education of the young generation.

***Key words:*** *Poetic, creative, nightingale, difficult, responsible, wise*

*"Bizim həm təbiətimiz bir-birinə uyğun olmuş, həm də seçdiyimiz sənət".*
**Abdulla Şaiq**

Azərbaycan ədəbiyyatının xüsusən, uşaq ədəbiyyatının inkişafı tarixində yüksək istedad, coşqun ilham sahibi və poetik duyuma malik olan Mir Mehdi Seyidzadə təkcə uşaq əsərləri ilə kifayətlənməyib, eyni zamanda yaşlılar və böyüklər üçün bir sıra dəyərli əsərlər yazan şair kimi tanınıb sevilmişdir. Müasir Azərbaycan ədəbiyyatında başlıca olaraq uşaq yazıçısı kimi tanınaraq, uşaq ədəbiyyatı tarixinə, 1930-cu illərdən başlayaraq adını və yaradıcılıq yolunu istedadı ilə işıqlandırmışdır. Uşaqlar üçün yazmaq çətin, məsuliyyətli, həm də şərəfli bir iş olduğunu hər zaman vurğulayan şair, yazıçılarımıza uşaq psixologiyasının incəliklərini duymaq, uşaqlara həqiqəti deməyi bacarmaq və onları razı sala bilmək üçün xüsusi istedad lazımdır fikrini dönə-dönə işlədirdi. Mir Mehdi Seyidzadə də bu xüsusiyyət danılmaz yaradıcılıq pirinsipi idi. Müəllifin "Övlad məhəbbəti", "Qaranquşlar", "Gülməlidir", "Yaxşı yoldaş" və s. şeirləri, nağıl-pyesləri və poemaları, onun qüvvətli uşaq yazıçısı olaraq yaradıcılıq xüsusiyyətlərini, bədii imkanlarını bu ədəbiyyata gətirərək, özünəməxsus yenilikləri bütünlükdə aşkara çıxartmışdır. Şairin vətən, xalq və azadlıq kimi müqəddəs mövzulara müraciətində, təmiz və pak insan eşqini tərənnüm edən şeirlərində, həmçinin uşaqlar üçün yazdığı səmimi mahnılarında coşqun, həm də saf bir romantika duyulurdu. Bu romantikanın kökü həyata, torpağa bağlıdır, buna görə də təsirli və təravətlidir.
***Anaktar kelimeler****: Şiirsel, yaratıcı, bülbül, zor, sorumlu, bilge*

*Ömür keçir, həyatın dənizi dərinləşir,*
*İrəliyə gedəndə dalğalarla əlləşir.*
*Adam var ki, ömrünü qayğısız vurur başa,*
*Bənzəyir dənizlərin dibində itən daşa.*
*Adam var ki, çalışır, mavi suları yarır,*
*Ümmanların dibindən parlaq inci çıxarır.*

Onun haqqında nəşr olunmuş məqalələrdə, istedadlı yazıçılarımızın fikikirləri ilə oxucuların düşündükləri üst-üstə düşərək maraqlı fikirlərlə qarşılaşırıq. "Uşaqları sevindirən, böyükləri düşündürən şair ...", "Gəncliyin ağ saçlı şairi", "Həmişə cavan şair", "Uşaqların sevimlisi", "Şərəflə yaşanmış ömür", "Bahar şairi", "Mən şeyda bülbüləm, məftunam gülə", "Ellər bizi unutmaz, xatırlayar həmişə, "Uşaq qəlbi qədər təmiz, kövrək və həssas olan Mir Mehdi Seyidzadə" və s. Görkəmli şəxslərin şair haqqında dedikləri kəlamlar yazıçının bu sənət dünyasında təkrar olunmaz olduğunun bir təcəssümüdür.

Mir Mehdi Seyidzadənin gözəl şeirləri və pyesləri ilə böyüməkdə olan nəsildə yüksək ideyalar, nəcib hisslər aşılayan şair ədəbiyyatımızın görkəmli nümayəndələrindəndir. Şair öz oxucularını, pərəstişkarlarını və mənəvi dostlarını tapana qədər çox uzun, mənalı və məzmunlu bir yol keçmişdir. Bu yol öz başlanğıcını uşaqlıq illərinin təmiz romantikasından götürmüş və sonralardan iki istiqamətə ayrılmışdır: Birincisi, gənclərin saf eşqini və yüksək əxlaqi-mənəvi sifətlərini tərənnüm edən lirik şairin yolu, ikincisi, yaşlıları müdrik fikirlər və gözəl hisslərlə düşündürüb təsirləndirən qocaman bir sənətkarın yolu. Şairin amalı, məqsədi və yaradıcılıq yolunun məna və istiqaməti həmişə aydın olmuş, irəliyə, yüksəkliyə və bədii bitkinliyə doğru tərəqqi etmişdir.

Şairin hər bir şeiri, mənzum nağılı ilə tanışlıq belə bir sənət incilərinin məhz Mir Mehdi Seyidzadə kimi uşaq psixologiyasına, uşaqların mənəvi dünyasının incəliklərinə dərindən bələd olan bir sənətkarın qələminə məxsus olmasından xəbər verir. Heç də hər bir şairə uşaqların

ISSN
3023-5480

sevimlisi olan uşaq şairi olmaq nəsib olmur. Şairinin kövrək uşaq qəlbinə asanlıqla yol tapan, siraət edən əsərlərində vətənpərvərlik, xeyirxahlıq, alicənablıq, dostluq, əməyə məhəbbət, təbiətə sevgi hissləri duyulur. Bu ülvi, bəşəri hiss və duyğular şairin yaradıcılığının əsas aparıcı leytmotivini, qayə və məramını oxucuların diqqətinə çatdırır. Onu təkcə uşaq şairi kimi adlandırmaq düzgün olmazdı. Şairin müxtəlif janrlı şeirləri şəkilcə, mövzu və məzmun etibarı ilə fərqli olsa da, bu sənət incilərinin hər birində ustad sənətkarın hiss və həyəcanı, sevinc və kədəri, eşq – sevgi həvəsi, həssas qəlb çırpıntıları sözlərlə diqqət çəkir:

*Mən şeyda bülbüləm, məftunam gülə,*
*Gülşən məskən olar şeyda bülbülə.*
*Vətən torpağında qalacaq daim,*
*Vücudum dönsə də bir ovuc külə.*

M.M.Seyidzadə 1907-ci ildə Aşqabadda gəmi fəhləsi Həsənin ailəsində anadan olmuşdur. 8 yaşında atası vəfat etmişdir. Anası Nənəqız uşaqları ilə birlikdə Bakıya köçmüşdür. Şair yaradıcılığının çox hissəsini uşaq və gənclərimizə həsr etmişdir. Şairin özü ruhən, şeirləri isə məzmun və mənaca həmişə cavandır. Şair qocalsa da şeir qocalmaz deyirlər.

45 il fasiləsiz «Uşaq gəncnəşr»də işləyən şair 1976-cı ildə Bakıda vəfat etmişdir. Mir Mehdi Seyidzadə ədəbi yaradıcılığa XX əsrin 20-ci illərin ortalarından başlamış, «Kənd qızı» adlı ilk şeirini 1925-ci ildə «Şərq qadını» jurnalında çap etdirmişdir. Ciddi yaradıcılıq axtarışları olan şair Mir Mehdi Seyidzadə uşaqların psixologiyasına uyğun gözəl əsərlər yaratmaq həvəsinə düşür, 1927-ci ildə nağıllar əsasında yazdığı «Qoçaq Səməd» adlı əsərini çap etdirir. İlk təşəkkül illərində Azərbaycanda uşaq ədəbiyyatını gücləndirmək məqsədilə 1930-cu ildə «Ən yaxşı uşaq əsərləri üçün» müsabiqəsi elan olunur. Müsabiqədə Mir Mehdi Seyidzadənin «Şanlı gün»(1932), əsəri mükafata layiq göürülür. Onun yaradıcılığı 30-cu illərdə daha məhsuldar olmuşdur: «Kiçik təyyarəçilər» (1932), «Pinti Həsən» (1934), «Nərgiz» (1935), «Cocuq şeirləri» (1935), «Ayaz», «Nilufər» (1937), «Qızıl quş» (1938), «Ceyran» (1939), «Eldar və zaman» (1939), «Kiçik pyeslər» (1939), «Təzə şəhər» (1939) kitabları bu illərdə nəşr edilmişdir. II ci Dünya müharibəsi illərində Mir Mehdi Seyidzadə artıq görkəmli bir şair kimi tanınırdı. Müharibə illərində yaradıcılığı ilə daha çox oxucu kütləsi qazanaraq, ədəbiyyata daha çox mövzular gətirmişdir. O, qələmini süngüyə çevirib, qələbəmizə köməklik göstərmiş, ölkəmiz üçün ağır olan günlərdə onun “Balaca döyüşçülər” (1941), “And”, “Vətən qızı”, “Qorxmaz”, “Şanlı qəhrəman” (1942), “Bizim ellər” (1944), “Qəmər” (1945), “Maral” (1945) və s. şeirləri və kitabları nəşr olunmuşdur. Şairin 1945-ci ildə tamamlanmış “Zəfər” pyesi də oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Gənclərimizin vətənpərvərlik ruhunda tərbiyələndirilməsində bu əsərlərin rolu böyük olmuşdur. Mir Mehdi Seyidzadənin müharibə mövzusunda qələmə aldığı şeirlərdə vətənpərvərlik, humanizm, torpağa məhəbbət, düşmənə nifrət hissi güclüdür. II Dünya müharibəsinin qələbəsindən sonra bərpa və quruculuq illəri Mir Mehdi Seyidzadənin yaradıcılığına yeni motivlər daxil etdi. Onun bir-birinin ardınca çıxan kitabları – «Şeirlər» (1948), «Yaxşı yoldaş» (1949), «Çiçəklənən düzlər» (1950), «Yeni il hədiyyəsi» (1954), «Seçilmiş əsərləri» (1957), «Ürək sözləri» (1959), «Sirli çeşmə» (1962), «Ulduzlar səpələnir» (1963), «Şairin kitabxanası» (1964), «Seçilmiş əsərləri» (1966), «Həyat eşqi» (1968) müharibədən sonrakı dövrün hadisələri ilə sıx bağlıdır. Mir Mehdi Seyidzadənin bütün əsərləri, xüsusilə onun “Həyat eşqi” adlı kitabında toplanmış şeir və təmsilləri əmək mövzusunda yazılmışdır. Şair kiçik oxucularına başa salmağa çalışır ki, əmək insanın sağlamlığıdır, insanda sağlam ruh yaradır. Şair əməyi, zəhmətsevərliyi ön plana çəkir. “Toxucu qız” şeirində bunu biz aydın şəkildə görürük.

*Var olsun yorulmaq bilməyən əlin,*
*İpəyin sovqatı olub hər elin.*
*Geyinir,bəzənir toyda qız-gəlin,*
*Sənin toxuduğun incə ipəkdən.*

ISSN
3023-5480

Mir Mehdi Seyidzadə uşaqların həyatı haqqında yazmağı özünə vətəndaşlıq borcu sayırdı. Onun «Unudulmaz xatirələr» (1975), «Gümüşü qar» və «Xatırlayarsan məni...» kitablarında bu barədə yazdığı mülahizələr olduqca maraqlıdır. Şairin bütün əsərlərində olduğu kimi, kiçik yaşlı uşaqlar üçün yazdığı şeirlərdə də vətənə məhəbbət başlıca yer tutur. Onun «Lalə», «Tutuquşu», «Dağlar», «Göy-göldən lövhələr», «Buzovnada», «Bağbanın söhbəti», «Zaqatala meşələri», «Gözəlsən» şeirləri bu cəhətdən səciyyəvidir. Onun şeirlərində ucsuz-bucaqsız Vətənimizin dağları, dərələri, yaylaqları, dəniz, göl və çayları öz əksini tapmışdır.

Gənc nəslin təlim və tərbiyəsində məktəblə ailənin sıx əlaqəsi vacibdir. Çünki məktəblə ailənin birgə münasibəti uşaqların formalaşmasına yaxşı təsir göstərir - «Gülməlidir», «Tut ağacı», «Dostum», «İlk addım», «Yoldaşlıq köməyi», «Qaranquşlar» və «Ağacların şikayəti» şeirləri bu baxımdan diqqəti cəlb edir. «Gülməlidir» şeirində Səfdər adlı pinti, tənbəl bir məktəbli surəti təsvir olunur. Səfdər yuyunmaqdan qorxur, kitabı yazıb-qaralayır, dəftərin vərəqlərini ləkələyir:

*Bəzən itir papağı,*
*Dərsə gedir papaqsız.*
*Onun ayaqqabısı*
*Olur çox zaman bağsız.*
*Nə məktəbdə, nə evdə,*
*O deyil səliqəli.*
*Səftəri görən deyir:*
*-Gülməlidir, gülməli.*

Mir Mehdi Seyidzadənin uşaq şeirlərində başlıca motivlərdən biri zəhmətdir. «İlqarın bacısı», «Mingəçevir», «Sənətin sirri», «Gənc bağbanlar», «El gücü», «Tənbəl olma» və s. şeirlərində də şair zəhmətin nə olduğunu və faydasını açıqlayır. Mir Mehdi Seyidzadə kiçik oxucularına nəğmələr də yazmışdır. Bu nəğmələrin mövzusu geniş, əhatəlidir. «Gün çıx», «Quzum», «Bənövşə», «Laylalar», «Gözəlsən», «Xəzər», «Kəpəz», «Qış baba», «Bahar» və s. Azərbaycan uşaq ədəbiyyatının yaradıcılarından olmaq etibarı ilə şair uşaqlara – özünün müdrik və məsum oxucularına üç mühüm fikri, məsələni təlqin etməyə çalışır. Birincisi, həyatda namusla yaşamaq, doğruçu olmaq və dosta, yoldaşa dar gündə, çətin zamanda köməklik göstərmək. İkincisi, öz qəlbində müqəddəs duyğulara yol vermək, cəmiyyət, xalq və Vətən üçün yararlı vətəndaş kimi böyümək. Üçüncüsü isə, zülmə, xəyanətə və şər qüvvələrə qarşı mübarizə aparmaq, gözəllik və paklığın qələbə çalması uğrunda çarpışmaq. Müəllif bu qəbildən olan fikirlərini, arzularını əyani şəkildə əsərlərində şərh etmişdir. Çox az hallarda isə nəsihətamiz şəkildə, maraqlı üsulla öz fikirlərini bildirmişdir. Bu səbəbdən də şairin oxucuları onun təsvir etdiyi qəhrəmanların, müsbət surətlərin ədalətsizlik, pislik və zülm üzərindəki qələbəsinə inanırlar, bu qəhrəmanları hiss edir, görür və sevirlər. Mir Mehdi Seyidzadənin uşaq ədəbiyyatı sahəsindəki xidmətlərindən biri də onun bir sənətkar olaraq öz mövzularını qaynar və tükənməz bir çeşmədən, xalq ədəbiyyatı nümunələrindən götürməsidir ki, bu da şairin əsərlərinə bir təbiilik, bədii aydınlıq və şirinlik gətirmişdir. Ədibin "Şah və xidmətçi" mənzum nağılını Nizami Gəncəvinin eyniadlı mənzum hekayəsinin motivləri əsasında qələmə almışdır. Fikirimizcə, əsərin bəzi fərqli və oxşar cəhətlərinə diqqət yetirmək yerinə düşər. Yazıçı mənzum nağılda qaniçən zalım şah obrazına qarşı xeyirxah, iradəli, qorxmaz xidmətçi obrazı yaradaraq istismarçı qüvvələrə etirazını bildirir, xalq içindən çıxan adi bir xidmətçinin timsalında onları haqqa, ədalətə çağırır. Nizami Gəncəvinin qəhrəmanı ov zamanı ceyranı xilas edərək şahın qəzəbinə düçar olur. M.M.Seyidzadənin qəhrəmanı xidmətçi obrazı isə şahın döydürdüyü bir kəndlini evinə apararaq, ona dəvəsini verir və ölkədən qaçmasına şərait yaradır, bundan xəbər tutan şah onu cəzalandırır. Çairin qəhrəmanı qorxmadan şaha deyir:

*Sənə on il düz,*
*Mən gecə, gündüz*
*Elədim xidmət.*
*Heç qədir-qiymət*
*Bilmədin, ancaq*

*İtdən də alçaq*
*Oldun, hökümdar.*
*İtdə vəfa var.*
*Səndə yox...Hər kəs*
*Dost qədri bilməz.*

"Şah və xidmətçi" mənzum nağılda ədibin digər əsərləri kimi dilinin sadəliyi, oxunaqlı və maraqlı süjet xətti və qəhrəman seçimi ilə diqqəti cəlb edir.

Şair uşaqları ılıq hissləri və təmiz fikirləri, böyükləri alovlu eşqi və şirin qəzəlləri ilə sevindirmişdir. Uşaq yazıçısı olmaq çox çətin, məsuliyyətli, həm də şərəflidir. Uşaq psixologiyasının incəliklərini duymaq, uşaqlara həqiqəti deməyi bacarmaq və uşaqları qəlbən sevindirib razı sala bilmək qabiliyyəti hər kəsə müyəssər olmur. Bu çox nadir bir istedaddır ki, doğruluğu, məsumluğu və səmimiyyəti, bütün varlığı ilə yaşayan azyaşlı vətəndaşlara həyatın gözəlliklərini, insanların əməlini, mübarizəsini və xarakterini sevdirə biləsən, onları təsirləndirməyi bacarasan və elə edəsən ki, uşaqlar deyilənləri heç zaman yaddan çıxarmasınlar, daim gözəllik və həqiqət haqqındakı anlayışlarında səhv etmədiklərinə bir dəfəlik inansınlar. Bu xüsusiyyətlər istedadlı şair-dramaturq, hamımızın rəğbət bəslədiyi Mir Mehdi Seyidzadənin qələmindən çıxan öyüd-nəsiyyətlərdir. Şairin özü ruhən, şeirləri isə məzmun və mənaca həmişə cavandır. Şair yaradıcılığı boyu uşaqları ılıq hissləri və təmiz  fikirləri ilə, böyükləri alovlu eşqi və şirin qəzəlləri ilə sevindirmişdir. Uşaq qəlbi qədər təmiz, kövrək və həssas olan şairin yaradıcığı gənc nəslin tərbiyə edilməsində həmişə mühüm rol oynamışdır. Mir Mehdi Seyidzadənin adı, əsərləri və şəxsiyyəti xalq arasında, gənc və yaşlı oxucular içərisində ehtiramla xatırlanır, məhəbbətlə yad edilir və sevilir.

Mir Mehdi Seyidzadə uşaqlar üçün bir sıra poemalar yazmışdır. Burada gənc oxuculara Azərbaycan xalqının keçmişindən tutmuş, bu günə qədərki həyatından baş vermiş ən maraqlı hadisələrdən danışılır. Mir Mehdi Seyidzadə «Bakı mənzərələri», «Gilgilçay sahilində», «Sehrli güzgü» və digər nağıl-poemalarında vətənimizin keçmişinə və bu gününə nəzər salır, balaca oxucularını ata-babaların mübarizə yolu, əqidəsi ilə tanış edir. Mir Mehdi Seyidzadənin uşaq şeirləri ilə yanaşı maraqlı, mənalı təmsilləri də var. Məlum olduğu kimi, yazıçılar uşaqları təbiətlə və canlı aləmlə yaxından tanış etmək məqsədilə nağıllardan və təmsillərdən geniş istifadə etdirlər. Mir Mehdi Seyidzadə də bu məqsədlə xalq nağıllarına və təmsillərinə tez-tez müraciət etmişdir. Onun mənzum nağılları uşaqlar tərəfindən həmişə rəğbətlə qarşılanmış, sevilə-sevilə oxunmuşdur. «Göyərçin», «Qartal və qaranquş», «Sehrli nar», «Lovğalar», «Üç alma» və s. mənzum nağılları da fikrimizi sübut edir. Mir Mehdi Seyidzadənin təmsilləri mövzu baxımından əhatəlidir. Şair təmsillərdə fikir aydınlığına, müasirliyə, tərbiyəvi mənaya xüsusi diqqət yetirir. Yuxarıdakı fikirlərimizi «Dağ və Duman», «Söyüd və limon gülü», «Bülbül və çalağan», «Tülkü və cücə», «Tamahkar qarğa», «Canavar və tülkü» təmsillərində daha qabarıq görmək olur.



Mir Mehdi Seyidzadə, A.Şaiqdən sonra Azərbaycan uşaq dramaturgiyasının inkişaf dövrürüdür. O, xalq nağıllarından və klassik irsdən istifadə yolu ilə bir sıra gözəl və yadda qalan səhnə əsərləri yaratmışdır. Onun müasir mövzuda yazdığı uşaq pyesləri oxunaqlı və tərbiyəvi əhəmiyyət kəsb edən mövzulardır. 1927-1929-cu illərdə müasir mövzuda uşaq şeir və nəğmələrini, "Zirək Səməd" mənzum nağılını, "Şanlı gün" poemasını yazmışdır. "Nərgiz" nağıl-poeması əsasında yazdığı bu nağıl-pyes Mir Mehdini bir dramaturq kimi tanıtmışdır. "Kiçik təyyarəçilər", "Neftə doğru", "Pinti Həsən", "Uşaq şeirləri" kitablarından "Nərgiz" əsərinədək yüksələn şairin həm məhsuldar, həm də keyfiyyətcə yeni dövrü başlamışdır. 1935-1936-cı illərdə Gənc Tamaşaçılar teatrının və Kukla teatrının səhnələrində müvəffəqiyyətlə oynanılmışdır.

Mir Mehdi Seyidzadə «Ayaz», «Qızılquş», «Ata məhəbbəti», «Büllur qəsr», «Sehrli saz», «Qorxmaz», «Cırtdan» pyesləri onun şifahi xalq ədəbiyyatı ilə sıx bağlı olduğunu sübut edir. M.M.Seyidzadənin klassik ədəbi irsdən bəhrələnib yazdığı «Sevgi» və «Fitnə» pyesləri də maraqlıdır. Mir Mehdi Seyidzadə ilk yaradıcılığına xalq ədəbiyyatı motivləri üzrə nağıl və poemalar yazmaqla başlamışdır. Folklorun daimi mövzusu olan Xeyir ilə Şərin mübarizəsi mövzusunu yeni məzmunla - əməkçilərin zalımlara qarşı mübarizəsi ilə əlaqələndirmiş, azadlıq və inqilab ideyalarını tərənnüm etmişdir. Elə bu baxımdan da onun ilk əsəri "Qoçaq Səməd" (1929) xalqın padşaha qarşı

ISSN
3023-5480

üsyanı və qələbəsi mövzusuna həsr olunmuşdur. Şairin xalq ədəbiyyatı motivləri üzrə yazdığı nağıl-poemalardan biri də balacaların ən çox sevdiyi "Cırtdan" nağılıdır. O, Cırtdanın nağılını şeir dili ilə balaca oxuculara sevdirmişdir. Dövürdən, zamandan, quruluşdan asılı olmayaraq ədibin dərin məna çalarları ilə zəngin əsərləri hər zaman başərə, estetik və mənəvi tərbiyəyə, əxlaqa, inama, etibara, ülvi hiss və sevgiyə, nəzakətə və mehribanlığa, vətənə, doğma torpağına, təbiətə və cəmiyyətə, ailə - məktəb vəhdətinə, doğma dilinə bağlılığı ən  dəyərli bir vasitə olmuşdur.

M.M.Seyidzadə Məhəmməd Füzulinin həyatı («Şairin gəncliyi»), II ci Dünya müharibəsinə həsr etdiyi («Zəfər») mövzusunda pyeslər də qələmə almışdır.

*Mənə həyat verən yurdum, elimdir,*
*Vətən candan şirin bir sevgilimdir.*
*Ölməz Füzulini, böyük Sabiri*
*Yetirən Vətənim, ana dilimdir.*

1964-cü ildə ədib "Şairin kitabxanası" adlı ilk kitabını nəşr etdirdi.  Bu yaradıcılıq motivlərinə müəllifin ən yaxşı şeirləri, uşaq əsərləri və nəğmələri, poemaları və dahi Azərbaycan şairi M.Füzulinin gəncliyinə həsr olunduğu "Şairin gəncliyi" adlı dram əsəri daxil edilmişdir. Mir Mehdi Seyidzadənin tərcümə etdiyi müxtəlif səpkili Dünya ədəbiyyatından incilər onun fəaliyyətinin geniş  göstəricisi idi. Əlbəttə, onun tərcümə ilə bağlı yaradıcılıq işi həm də dünya xalqlarını mənən bir-birinə yaxınlaşdıran bədii bir vasitə idi.

Mir Mehdi Seyidzadə Ömər Xəyyam, A.S.Puşkin, V.A.Jukovski, İ.A.Krılov və başqa ədiblərdən tərcümələr də etmişdir və zəngin yaradıcılığına görə dövlətimiz şairi fəxri fərman və medallarla təltif etmişdir. Mir Mehdi Seyidzadə tərcüməyə ciddi yaradıcılıq işi kimi baxmış, rus və Avropa ədəbiyyatının uşaq şeir nümunələrini dilimizə çevirmişdir. . Uşaq qəlbi qədər təmiz, kövrək və həssas olan Mir Mehdi Seyidzadənin yaradıcılığı gənc nəslin tərbiyə edilməsində həmişə mühüm rol oynayacaqdır.



**Ədəbiyyat**

1. Əliyev M. Xatırla məni: Mehdi Seyidzadənin 70 illiyi münasibətilə  Ədəbiyyat və incəsənət. 12 noyabr 1977, səh. 6.
2. Qasımzadə Q. Uşaqların qocaman tərbiyəçisi: (Mehdi Seyidzadənin yaradıcılığı haqqında) Ədəbiyyat və incəsənət. 18 mart 1972, səh. 10.
3. Yusifli V. Ağanı unutmaq olarmı?: Mehdi Seyidzadə haqqında  Panorama. 22 yanvar 1998, səh.6.
4. Məmmədov K. "Unudulmaz xatirələr kimlərdən danışır: Mehdi Seyidzadənin eyni adlı kitabı haqqında Azərbaycan müəllimi. 19 mart 1976, səh. 3.